# NƏSRDƏ POEZİYA ƏTRİ

***Hörmətli redaksiya!***

***Bu günlərdə şəxsi arxivimi araşdırarkən ədəbiyyatşünas, tənqidçi, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Şahin Səfərovun mənim 1993-cü ildə nəşr olunmuş "Səs qərib olmur" kitabım haqqında yazdığı "Poeziya ətirli nəsr" adlı məqaləsinin əlyazmasını tapdım. Doğrusu, 20 il "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru vəzifəsində çalışmış Şahin Səfərovla şəxsən tanış deyildim. Bir gün hörmətli professor nə üçünsə "Gənclik" nəşriyyatına gəlmişdi. Tanışlıqdan sonra "Səs qərib olmur" kitabımı oxuduğunu söylədi. Sonra qovluğundan oxuculara təqdim etdiyim bu məqalənin əlyazmasını çıxarıb mənə verdi. - Xoşun gəlsə, çap etdirərsən, - deməyi də unutmadı. Mən ona təşəkkür etdim. Lakin, o zaman əlyazmanı makinada yığdırsam da, nədənsə çap etdirmədim. Aradan çox illər keçib. 15 noyabr 1995-ci ildə dünyasını dəyişmiş professor Şahin Səfərovun əziz xatirəsinin bir daha yad olunması üçün bu gün həmin yazını çap etməyinizi istərdim.***

***Hörmətlə***
***Mustafa Çəmənli***

***

Yazıçı üçün ən dəyərli keyfiyyət onun həssas qəlbə, ülvü mənəvi aləmə malik olması, dərin müşahidə qabiliyyətinə, nəhayət, mükəmməl biliklər toplusuna yiyələnməsidir. Bu cəhətlər yazıçının qələminə rövnəq verir, qəlbinə dərin müşahidəsindən süzülüb gələn musiqi ladları hopdurur, nəsrinə poeziya ətri, lirika təravəti gətirir. Mustafa Çəmənli məhz bu keyfiyyətlərə malik yazıçıdır.

Radio dinləyiciləri, televiziya tamaşaçıları yazıçının qəlbaçan, könüloxşayan ssenariləri əsasında efir və ekran verilişlərinə məhəbbətlə baxmış və dinləmişlər. "Teatr və musiqi", "Muğamlarımızın vəsfi", "Musiqi alətlərimizin vəsfi", qüdrətli bəstəkarımız Üzeyir bəy haqqında "Yadaşın işığında" radiopyesi və digər efir verilişləri dinləyicilərin yaddaşında unudulmazlıq timsalına çevrilib. Sehrli səsə malik Səxavət Məmmədov haqqında "Azad bir quşdum", kövrək avazında bir nalə, fəryad duyulan Əbülfət Əliyev barədə "Nəğməli ömürdən xatirə" ekran verilişi öz təravətli ətrini könüllərdə əbədi saxlayacaqdır. Bax, Mustafanın bu kövrək qələmi, nəcib ürəyi, geniş müşahidəsi onun gələcəyinin uğurlu olacağından xəbər verirdi. Belə də oldu. Jurnalist qələmi yazıçı fırçasına çevrildi. Oxucular onun dadlı-duzlu, həyat həqiqətləri ilə zəngin olan hekayə və povestləri, oçerkləri ilə həmdəm oldular. Budur, onun yeni bir kitabı - "Şərq-Qərb" nəşriyyatının nəşr etdiyi "Səs qərib olmur" adlı povestlər, hekayələr, portretlər və xatirələr toplusu qarşımızdadır.

Yazıçı kitaba daxil etdiyi "Yaddaş" povestini maraqlı bir süjet üzərində qurmuşdur. Əsər mənəvi-psixoloji aspektdə yazılmışdır. "Yaddaş"ın fəlsəfəsini başa düşmək üçün gərək müharibənin dünyanın əşrəfi olan insanı hansı müsibətlərə saldığını dərk edəsən və özünü bir anlıq povestin qəhrəmanlarının yanında görəsən. Bu personajların taleyi, ömür yolu, qəmli, kədərli, qüssəli dünyaları Xaspolad Səlimovun yaddaşına hopduğu kimi, oxucunu da addım-addım düşündürür.

Povestdə əsərin baş qəhrəmanlarından olan Xaspolad Səlimovun mürəkkəb şəxsiyyəti məharətlə işlənmişdir. Keçmiş kolxoz sədri Səlimov ağır xəstədir. Çətinliklə ayağa qalxır, ağır nəfəs alır, heç bir iş görə bilmir. Onun əlacı yaddaşına həkk olunan xatirələrə qalıb. Acılı-şirinli xatirələrə. Həyatda yaşayan əməli salehlər öz şirin xatirələri ilə yenidən canlanır, təzədən ehya olunurlar. Lakin Səlimov bu keyfiyyətlərdən uzaqdır. 37-ci illərdə qəsdən üzə durub adam tutdurmaqla qəddarlığa ilk qədəm basmışdır. İlk qurban - həmkəndlisi Salman buna bariz nümunədir. Xaspoladın müharibə dövründəki əməlləri isə ölçüsüz, əndazəsizdir. Yuxarıdakıların qabağında quyruq bulayan, özünə tabe olanlara isə qənim kəsilən Səlimov şəxsiyyəti, mənəviyyatı təzadlarla dolu insanların tipik nümunəsidir. Mustafa Çəmənli bu obrazla müharibə dövrünün həyat həqiqətlərini, real gerçəkliyini bədii sözün gücü ilə təbii və inandırıcı bir zirvəyə qaldırmışdır.

Xaspolad Səlimov doğma anasının ona dediyi "Səni görüm Əzrayıl aparsın" sözündən başlamış, olub keçənlərin hamısını yaddaşının süzgəcindən keçirir. Gördüyü bəd əməllərin qorxusu, vahiməsi onu gözlərini açıq saxlamadan belə çəkindirir. Ədibin dediyi kimi - "Səlimov üçün keçmişi xatırlamaq canındakı ağrılardan əzablı idi".

Yazıçı Səlimov şəxsiyyətinin bütün mürəkkəb cəhətlərini qələmə alarkən onun xarakterindəki ziddiyyətli əlamətlərin heç birini diqqətdən yayındırmamışdır. Cavanlığında bəd əməldən çəkinməyən Xaspolad indi bəzən peşmanlıq da keçirməyi bacarır. Anası barədə "Yazıq arvada göz verdim, işıq vermədim" - deyir.




Bu mürəkkəb şəxsiyyət barədə oxucu çox düşünür. Yəni Səlimov ahıl vaxtında həyata baxışını dəyişib? Çoban Fəqanın çay qırağından götürüb qaçdığı Ülkərə dar gündə əl yetirmək əvəzinə, şəhvani hislərini cilovlamağı bacarmayan bu kolxoz sədri əsgər ailəsini ələ keçirir. Onun bu ehtirası Fəqanın itkin xəbəri gələndən sonra daha da qızışır. Hətta Ülkər hamilə olanda belə Xaspolad övladına sahib durmur, gələcək körpənin taleyini Ülkərin ümidinə buraxır.

"... O biri gecə Səlimov çox gözlədi ki, "Ay" doğsun, o sirli-sehrli səs ona "gəl" desin, olmadı. Səlimov dözmədi, gedib özü qapını döydü. Ülkər qapını açdı, rəngi ağappaq idi, əlində ağa bükülü nəsə tutmuşdu! O bükülünü Səlimova uzatdı. Səlimov bu nədi, deyib bükülünü aldı.

- Apar! Apar öz günahını özün basdır torpağa! - Ülkər hönkürüb qapını Səlimovun üzünə örtdü".

Beləcə, bir parça tifili Xaspolad öz əlləri ilə aparıb torpağa kömür.

Yazıçı son dərəcə mənəvi-psxoloji tip yaratmışdır. Onun mürəkkəb xarakterindən nəticə çıxarmaq oxucu üçün asan deyil. Kimi günahlandıraq? Ülkəri? Axı gənc, sağlam, dağ havası ilə pərvəriş tapan bu qadın təbiətin bioloji, təbii tələbatı qarşısında acizdir. Qarşıya belə bir sual da çıxır: Müharibəyə gedən ərlərini ömür boyu gözləyən qadınlarımız namus, qeyrət timsalı deyillərmi? Amma yazıçı Ülkər obrazını elə ustalıqla işləyib ki, burada tərəddüdə əl yeri qalmır. Əri qəflətən evə dönəndə, öz keçmiş günahlarını intiharla yuyan Ülkər oxucunun nəzərində namus, qeyrət mücəssəməsinə dönür.

Xaspolad Səlimov xəstələnib yatağa düşəndə keçmiş günlərin xatirələri onu bir an rahat buraxmır. Xaspolad anasını yad edir. "Mənim anam ipək kimi arvad idi" - deyir. Hətta göz yaşı da axıdır. Tutduğu əməllərin gec-tez hesabını vermək hissi də onu rahat buraxmır. Əvvəlcə Ülkərlə münasibətdə öz şəhvət hislərini söndürməyə can atan Xaspolad qocalıq çağında "Jiquli"ni Ülkərin əvvəllər yaşadığı, indi isə boş qalan daxmasına sürür. Öz daxili əzabları içində boğulan Xaspolad həyatının son anlarında anlayır ki, deyəsən, Ülkəri sevirmiş.

"Səlimov yaddaşının dolanbac "küçələrindən" çıxa bilmirdi, durub gözləyirdi, həmişəki kimi ürəyinin döyüntüsünə qulaq asa-asa gözləyirdi. İndicə qapı açılacaq, "Ay" doğacaqdı. Sonra qarşısında qara gecəköynəyindən dağların qarı kimi ağ baldır, ağ sifət, ağ sinə ağaracaqdı. Daha sonra o, dünyanın ən sirli sözün, ən sehrli səsini eşidəcəkdi:

- Gəl!

Səlimov gözləyirdi. Həmişəki kimi gözləyirdi. Yaddaşı od tutub yanırdı, gözlərinə sanki qor dolmuşdu. Ancaq yenə durub gözləyirdi. Birdən daxmanın qapısı səs salaraq açıldı. Səlimov ürəyinin döyüntüsünə qulaq asa-asa gözlədi. Ülkər ona doğru gəlirdi, ancaq nədənsə adətinin əksinə, ağappaq geyinmişdi: üz ağ, baldır ağ, sinə ağ... Yaxşı, bəs o qara saçlar niyə ağdı? Bəlkə ay işığında elə görsənir?

Ülkər Səlimovun bərabərinə çatıb bircə an dayandı; ona qıyqacı baxıb, düşdü qabağa. Yenə dünyanın ən sirli sözü, ən sehrli səsi eşidildi.

- Gəl!

Səlimov baxdı ki, Ülkər qəbiristanlığa sarı gedir. Təəccüb elədi: "Gecənin bu vaxtında o, niyə ora gedir?"

Mustafa Çəmənli qələmindən çıxan bu povest insana nəyi tövsiyə edir? İlk növbədə vəzifə başında olanda sağına-soluna bax, gözün ayağın altını görsün. Həm də sabahkı günə əlyeri saxla. Əsəri oxuyarkən belə bir qənaətə gəlirik ki, tutduğun bəd əməllər yaşının hansı dövründəsə şüurlu insan kimi səni sıxırsa, əzirsə, yaddaşında həmin illərin közərtisi sönməyibsə, deməli, sən hələ mənən şikəst olmamısan. Bax, Xaspolad da bu ziddiyyətli ömür yolunun yaddaşına hopmuş əzab-əziyyəti ilə dünyasını dəyişir.

İkinci povest "Halallıq" adlanır. Bu əsər xalq rəvayəti əsasında olsa da, bu günün reallığı ilə səsləşir. Etik-didaktik səpkidə yazılan həmin əsər yazıçıdan yüksək ustalıq tələb edir. Ən əvvəl deməliyik ki, Mustafa Çəmənli məqsədinə nail olub. Əsərin yığcam bir süjeti var: İki sadə insan - Kəblə Həsən oğlu Surxay və Alı oğlu Sultan arasındakı təsadüfü tanışlıq, dostluq, nəhayət, həmin dostluğun sonradan qohumluğa çevrilməsinin nəticəsi.

"Halallıq" povestində yazıçı insanlara ülvi hislər, paklıq və nəciblik duyğuları təlqin edir. Qonağın narının şirəsindən bir damcı dadan Soltanın hamilə həyat yoldaşı Gülsüm təbii, real cizgilərlə təsvir edilmişdir. Hamilə qadının vəziyyəti, onun daxili tələbatı və nəfsi oxucuda xoş təəssürat yaradır. Burada qondarma heç nə yoxdur. Yeniyetməlik yaşına çatınca Soltanın oğlunun dəcəlliyinin səbəbini araşdırmaq, nəhayət, onun əsasını halallıqda tapmaq yazıçının yeni tapıntısıdır. Surxayın gəlin köçən qızının rəmzi mənada lal, kar, kor olması Mustafa Çəmənli tərəfindən inandırıcı işlənmiş, yazıçı təfəkkürünün etik-didaktik məzmununa dönmüşdür.

Kitabda yazıçının bir sıra görkəmli incəsənət xadimləri barədə xatirələr və portret yazıları da verilmişdir. Kitabın "Nəğməli ömürlər" bölməsində yazıçı bu sənətkarlar haqqında olduqca maraqlı epizodlar yazmış, onların həyatlarının ən dəyərli anlarını bədii sözün ecazkar qüdrəti ilə oxucusuna çatdırmışdır. Oxucu Məşədi Məmməd Fərzəliyev, Hüseynqulu Sarabski, Əhməd Ağdamski, Yavər Kələntərli, Şövkət Ələkbərova, Sara Qədimova, Əbülfət Əliyev, Arif Babayev, Qədir Rüstəmov, Səxavət Məmmədov və b. görkəmli sənətkarlarla yenidən görüşür, ünsiyyətdə olur. Bu yazılarda əyanilik o qədər güclüdür ki, sanki Əbülfətin, Arifin, Qədirin, Səxavətin sehrli səsini dinləyirsən. Azərbaycan incəsənətinin, mədəniyyətinin tərəqqisi yolunda bu cəfakeş sənət fədailərinin sonsuz fədakarlıqlarını görüb onlarla qürur duyursan.

Unudulmaz sənətkarlarımızın xatirəsini əbədiləşdirmək üçün yazıçı, sanki, sözün rayihəsini, ətrini dərindən köksünə çəkmiş və onlara min cür rövnəq verən yeni çələng hörmüşdür.

Kitaba toplanan əsərlərin gözəl məziyyətlərindən biri də Mustafa Çəmənlinin dilinin şəffaflığı, üslubunun gözəlliyi və sözlərinin lirik ahəngidir. Bir sözlə, yazıçının nəsrində poeziya ətri var.

**ŞAHİN SƏFƏROV,**
**Filologiya elmləri doktoru, professor**